

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 110 (21.520)

*17 iyun 2016-cı il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Avropa Xalq Partiyasının baş katibi, Mərkəzçi Demokratlar İnternasionalının icraçı katibi Antonio-Lopez İsturizi qəbul edib.

Görüşdə Azərbaycanın Avropa Xalq Partiyası və Mərkəzçi Demokratlar İnternasionalı ilə əməkdaşlığının inkişafından məmnunluq ifadə olunub, Azərbaycan-Avropa İttifaqı əlaqələrinin hazırkı vəziyyəti və perspektivləri müzakirə edilib, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesi ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da "Formula One Management"in prezidenti Berni Ekklstounu qəbul edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 13 iyun tarixli sərəncamları ilə Azərbaycanda səhiyyə sahəsində səmərəli fəaliyyətlərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının tibb işçiləri də vardır.

**Məmmədov Nizami Həsən oğlu**
"Əməkdar həkim" fəxri adı ilə

**Seyidova Sevda Mirəli qızı**
"Əməkdar tibb işçisi" fəxri adı ilə

**Cəfərli Əhəd Məmməd oğlu**
"Tərəqqi" medalı ilə təltif edilmişlər.

## Naxçıvanda 15 İyun Milli Qurtuluş Günü münasibətilə tədbir keçirilmişdir





İyunun 15-də Naxçıvan şəhərində Milli Qurtuluş Günü münasibətilə Naxçıvan Qarnizonunun Hərbi Orkestrinin və Ərzurum Mehtərən Tağımının birgə yürüş-konserti olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Milli Qurtuluş Günü münasibətilə keçirilən tədbirdə iştirak etmişdir.

Hərbi orkestr və Mehtərən Tağımı Heydər Əliyev prospektində minlərlə şəhər sakininin alqışları altında hərəkət etmiş, Heydər Əliyev Muzeyinin qarşısında Azərbaycan və Türkiyə hərbi marşları ifa olunmuşdur.

1993-cü ilin 15 iyun günü böyük xilaskarlıq missiyasının başlanğıcı – Milli Qurtuluş Günü kimi Azərbaycan xalqının tarixinə yazılmışdır. Xalqın təkidli tələbi ilə yenidən ali hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev xalqımızı üzləşdiyi bəlalardan xilas etmiş, Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamış, sabitlik və sürətli sosial-iqtisadi inkişafın əsasını qoymuşdur. Bununla da, Azərbaycan əsası 1969-cu ildə qoyulmuş inkişaf və tərəqqi yoluna qayıtmışdır.

Milli Qurtuluş Günü Azərbaycanın dövlətçilik tarixində mühüm mərhələ təşkil edir. Ölkəmizin və xalqımızın bugünkü xoş və firavan həyatı Milli Qurtuluşun bəhrələridir. ***"Xalq mənə ümid bəsləyir. Mən bu ümidi doğrultmaq üçün həyatımın qalan hissəsini xalqıma bağışlayıram və ona qurban verməyə hazıram"***, – deyən ulu öndərin fədakarlığı olmasaydı, indi Azərbaycan adlı müstəqil dövlət də olmayacaqdı.

Bu gün ümummilli liderimizin siyasi xətti ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan yeni inkişaf mərhələsinə yüksəlmiş, dünyada söz sahibi olan müstəqil dövlətə çevrilmişdir. Naxçıvan Muxtar Respublikası da Milli Qurtuluşun işığında hərtərəfli inkişafa nail olmuşdur. Bu gün muxtar respublikada mühüm sosial-iqtisadi islahatlar həyata keçirilir, geniş quruculuq işləri aparılır, şəhər, qəsəbə və kəndlər yenidən qurulur, əhalinin rifahı ilbəil yaxşılaşdırılır.

Bütün bunlara görədir ki, 15 İyun Milli Qurtuluş Günü hər il ölkəmizdə və muxtar respublikada böyük təntənə və bayram sevinci ilə qeyd olunur. Azərbaycana dost və qardaş ölkələrdə də Milli Qurtuluş Günü münasibətilə tədbirlər keçirilir, xalqımızla həmrəylik və birlik nümayiş etdirilir. Milli Qurtuluş Günündə Naxçıvanda keçirilən tədbirlərdə Ərzurum Mehtərən Tağımının iştirakı da görə onlara təşəkkür etmişdir.

Ali Məclisin Sədri Ərzurum Mehtərən Tağımının üzvləri ilə görüşmüş, uğurlu ifalara görə onlara təşəkkür etmişdir.

Həmin gün muxtar respublikanın rayonlarında da 15 İyun Milli Qurtuluş Günü münasibətilə tədbirlər keçirilmiş, xalq gəzintiləri təşkil olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Milli Qurtuluş Günü münasibətilə xalq gəzintiləri təşkil olunub

### *Şərur rayonu*

***Şərur muxtar respublikamızın böyük rayonlarından biridir. Ulu Tanrı öz səxavətini bu bölgədən əsirgəməyib. Milli Qurtuluşdan ötən dövr ərzində isə Şərur müasir rayona çevrilib. Belə ki, tarixə qovuşan son 23 ildə rayonda həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri, reallaşdırılan iqtisadi layihələr Şərura böyük yeniliklər gətirib, insanların həyat səviyyəsi xeyli yüksəlib.***

Şərur şəhəri, bölgənin kəndləri füsunkar bir gözəlliyə qovuşub, yenilənib, müasirləşib. Kəndlə şəhər arasındakı fərqin aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlər bəhrələrini verib. Kənd yaşayış məntəqələrində müasir infrastruktur yaradılıb. Bu dövrdə rayonda həyata keçirilən quruculuq tədbirlərinin həcmi o qədər böyükdür ki, onları adbaad sadalamaq mümkün deyil. Qısaca olaraq bildirək ki, adıçəkilən dövrdə rayonun 45-dək yaşayış məntəqəsində kompleks quruculuq tədbirləri həyata keçirilib. Bu tədbirlər çərçivəsində təhsil, səhiyyə, mədəniyyət ocaqları üçün yeni binalar, kənd mərkəzləri tikilib. Belə qayğıdan rayonun digər idarə, müəssisə və təşkilatlarına da pay düşüb. Həmin müəssisələrdə müasir iş şəraiti yaradılıb. Rayondaxili yolların müasirliyinə söz ola bilməz.

Rayonda sahibkarlar təbəqəsi formalaşıb. Bu isə yeni iş yerlərinin açılmasına, insanların məşğulluğunun təmin olunmasına imkan verib. Turizm potensialından düzgün istifadə üçün tədbirlər reallaşdırılıb. Bütün sahələrdə qazanılan uğurlar getdikcə artmaqdadır.

Hazırda rayonun Arbatan, Çəmənli və Arpaçay kənd yaşayış məntəqələrində kompleks quruculuq tədbirləri həyata keçirilir. Dərvişlər-Arpaçay-Çəmənli, Çərçiboğan-Arbatan kəndlərini birləşdirən yollar yenidən qurulur. Şərur şəhərindəki 2 nömrəli tam orta məktəb və Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey üçün binalar tikilir.



Görülən bu işlərə rayon sakinləri necə qiymət verirlər? Milli Qurtuluş Günü münasibətilə təşkil edilən xalq gəzintisində bir neçə şərurlu ilə həmsöhbət oldum. Naxçıvan Muxtar Respublikasının Əməkdar bədən tərbiyəsi və idman xadimi Rza Camalov dedi:

– Bütün bunlar Milli Qurtuluşun Şərura və şərurlulara böyük töhfələridir. Həyata keçirilən bütün layihələr bir məqsədə ünvanlanıb: şərurluların yaşayış səviyyəsini yaxşılaşdırmaq, insanların layiq olduğu səviyyədə yaşamasına nail olmaq. Rayon sakinləri də bu həqiqəti dərindən dərk edir, rayonun, muxtar respublikanın və nəticə etibarilə, ölkəmizin sosial-iqtisadi inkişafına öz töhfələrini verməyə çalışırlar.

Şərur şəhər sakini Qəhrəman İbrahimov: – Şərurlular Milli Qurtuluş Günündən ötən dövrdə həyata keçirilən tədbirlərdə fəallıq göstərməyi vətəndaşlıq borcu bilərək doğma yurd yerinin müasirliyə qovuşması üçün əllərindən gələni əsirgəməyiblər, dövlətimizə dəstək olublar. Rayon sakinləri Şərurun daha da çiçəklənməsi, iqtisadi cəhətdən güclənməsi üçün səy və bacarıqlarını əsirgəmir, son 23 ildə qazanılan uğurları son hədd hesab etməyərək qarşıdakı illərdə də yüksək göstəricilərə nail olacaqlarına inanırlar. Çünki arxalarında güclü və müstəqil dövlətin durduğunu görürlər. Belə dövlətin vətəndaşları olmaqla qürur duyurlar. Bilirlər ki, nail olunan hər bir uğurun təməlində insana, onun layiq olduğu səviyyədə yaşamasına qayğı dayanıb.

Həmin gün Şərur Rayon Mədəniyyət və Turizm Şöbəsinin "Arpaçay" instrumental ansamblı üzvlərinin maraqlı ifaları xalq gəzintisinə çıxanlara yüksək ovqat bəxş edib.

*Ardı 2-ci səhifədə*

## Babək rayonu

***1993-cü ilin 15 iyunundan sonra Azərbaycan, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası sabitlik və inkişaf yoluna qədəm qoyub. Ümummilli lider Heydər Əliyevin yaratdığı Babək rayonu da ötən illər ərzində çiçəklənib, inkişaf edib. Qədirbilən rayon sakinləri iyunun 15-də rayon mərkəzində təşkil olunmuş xalq gəzintisində bir daha Heydər Əliyev ideyalarına, amallarına sədaqət nümayiş etdiriblər.***

Həmin gün rayon ictimaiyyətinin toplaşdığı bayram tədbirində həmsöhbət olduğumuz rayon sakinlərindən Həsən Həsənov bildirdi ki, Babək rayonunun yaradılmasından 38 il keçir. 1978-ci il oktyabrın 23-də təşkil olunmuş yeni rayona mərkəzi hakimiyyətin iradəsinin əksinə olaraq xalq qəhrəmanı Babəkin adının verilməsi ulu öndərimizin qətiyyətinin, siyasi iradəsinin, uzaqgörənliyinin nəticəsi idi. Ümummilli lider bu tarixi addımı atmaqla milli düşüncənin Onun üçün hər zaman öndə olduğunu sübut etdi.

Sahibkar Nağı Nağıyev isə dedi ki, Babək rayonu muxtar respublikada böyük aqrar potensiala malik rayonlardan biridir. Sahibkarlığa göstərilən hərtərəfli dövlət qayğısının sayəsində rayonda kənd təsərrüfatının



və sənayenin müxtəlif sahələri inkişaf etdirilib, xeyli sayda istehsal müəssisələri fəaliyyətə başlayıb. Yaradılmış şərait sahibkarların fəaliyyətinə geniş imkanlar açıb. Bu gün əldə etdiyimiz uğurların təməlində, təbii ki, Heydər Əliyev ideyalarının uğurlu davamı və sabitlik dayanır.

Digər rayon sakini Sulduzə Hacıyeva isə uzun illərdir ki, Şıxmahmud kənd tam orta məktəbində müəllim işləyir. Onun dediklərindən: "Milli Qurtuluş Günü Azərbaycan tarixinin ən parlaq səhifəsidir. O tarixi gün olmasaydı, yəqin ki, bu günümüz sual altında qalardı. Heydər Əliyev kimi dahi şəxsiyyətin yenidən siyasi hakimiyyətə qayıdışı bizi bütün bəlalardan xilas edib. Bu gün rayonumuzun hansı yaşayış məntəqəsinə getsən, orada yeni quruculuq ünvanları ilə, abad yollarla qarşılaşarsan. Hər tərəfdə səliqə-sahman hökm sürür, yaşıllıqlar göz oxşayır. Kəndlərimizdə tikilən müasir məktəblər şəhər məktəblərindən fərqlənmir. Təhsilə elə yüksək dövlət qayğısı göstərilir ki, bu qayğının sayəsində oxumamaq və yaxud gələcəyimiz üçün savadlı, bilikli kadrlar yetişdirməmək mümkün deyil. Bütün bunlar isə Milli Qurtuluşun xalqımıza töhfələridir".

Həmin gün Babək qəsəbəsində Milli Qurtuluş Günü münasibətilə xalq gəzintisi təşkil olunub. Mərkəzi meydanda yerli istehsal müəssisələrinin məhsulları nümayiş etdirilib, Babək Rayon Mədəniyyət Evinin musiqiçiləri tərəfindən ulu öndərimizə, vətənimiz Azərbaycana, müstəqilliyimizə, xalqımızın şanlı tarixinə, yurdumuzun gözəlliklərinə həsr olunan mahnılar səsləndirilib.

* * *

## Ordubad rayonu

***Tariximizə qızıl hərflərlə yazılmış Milli Qurtuluş Günündən ötən müddət ərzində Ordubad rayonunda 80-dən çox obyekt inşa edilərək və ya yenidən qurularaq istifadəyə verilib, onlarla yaşayış məntəqəsi, eləcə də ucqar dağ yaşayış məntəqələri abad kəndlər sırasına qoşulub.***

Ötən müddətdə rayonda ən müasir avadanlıqlarla təchiz edilmiş ümumtəhsil məktəbləri, musiqi məktəbləri, uşaq bağçaları, səhiyyə və mədəniyyət müəssisələri üçün binalar inşa edilərək istifadəyə verilib, kənd mərkəzləri həyata vəsiqə alıb. Bütün bu görülən işləri Milli Qurtuluş Gününün bəhrələri kimi dəyərləndirən qədirbilən ordubadlılar hər il tarixə qızıl hərflərlə yazılmış bu günü yüksək əhval-ruhiyyə ilə qeyd edirlər.

Ordubad şəhərində də Milli Qurtuluş Gününə həsr olunmuş xalq gəzintisi təşkil edilib. Gəzinti zamanı görüşüb həmsöhbət olduğum rayon ziyalısı Cabir İsmayılov bildirdi ki, ümummilli liderimiz Heydər Əliyevin "Azərbaycanın incisi" adlandırdığı Ordubad rayonunun Milli Qurtuluş Günündən ötən dövr ərzində keçdiyi böyük inkişaf yolunu gözlərimiz önünə gətirəndə təəccübümüzü gizlədə bilmirik. Çünki 23 illik zaman kəsiyində bölgə on illərə bərabər yol qət edib. Rayonun iqtisadiyyatı inkişaf etdirilib, yeni iş yerləri yaradılıb, insan amilinə



xidmət edən digər məqsədyönlü tədbirlər həyata keçirilib. Zəngin fauna və floraya, tarixi abidələrə malik olan Ordubad şəhərinin əvvəlcə qoruq, sonra rayon ərazisinin yasaqlıq elan edilməsi, müstəqillik illərində burada milli park yaradılması, yeni istehsal müəssisələrinin işə salınması ulu öndər Heydər Əliyevin bağlar diyarına böyük qayğısının ifadəsi kimi dəyərləndirilir. Ordubad rayonunun həm yaşayış məntəqələri, tarixiliyin və müasirliyin vəhdətindən doğan gözəllikləri Milli Qurtuluş Gününün bəhrələridir.

Xalq gəzintisi zamanı həmsöhbət olduğum rayon gənclərindən Əli Heydərov, Ülviyyə Əlizadə, Gülçatay Bağırova, Şəbnəm Rüstəmova və başqaları ilə söhbət zamanı qeyd edildi ki, Milli Qurtuluşdan ötən dövr ərzində bölgənin ən ucqar dağ və sərhəd kəndlərinin belə, siması dəyişib, bu yaşayış məntəqələrində tikinti-quruculuq işləri geniş vüsət alıb. Yeni tikililər qədim yurd yerinə yeni görkəm gətirib. Aparılan məqsədyönlü tədbirlər insanların həyata baxışlarını da dəyişib. Bir sözlə, Ordubad tarixiliyini saxlamaqla ən abad və füsunkar bir yurd yerinə çevrilib. Bu gün rayon gəncləri dərindən dərk edirlər ki, bütün bunlar Naxçıvan Muxtar Respublikasında Heydər Əliyev yoluna sədaqətin və ehtiramın ifadəsi hesabınadır. Odur ki, xalqımızın dahi oğlu rayon sakinləri tərəfindən daim minnətdarlıqla, böyük sevgi hissləri ilə xatırlanır, Onun xatirəsi əziz tutulur.

* * *

## Kəngərli rayonu



***Müstəqil Azərbaycanda sabitlik və inkişafın təməlinin qoyulduğu 15 İyun – Milli Qurtuluş Günü Kəngərli rayonunda da böyük təntənə ilə qeyd edilib.***

Belə ki, rayon mərkəzinin Qıvraq qəsəbəsindəki Heydər Əliyev Mədəniyyət və İstirahət Parkında ictimaiyyət nümayəndələrinin xalq gəzintisi təşkil olunub.

Bu bölgəmizdə Milli Qurtuluş Gününün böyük sevinclə qeyd olunmasının əsaslı səbəbləri var. Bütün rayon sakinləri muxtar respublikamızda, o cümlədən Kəngərli rayonunda görülən əsrə bərabər işlərin Milli Qurtuluş Gününün töhfələri olduğunu dərindən dərk edirlər.

Xalq gəzintisində rayon sakinləri bölgədə insan amilinin daim diqqət mərkəzində olduğunu bildirdilər. Onlar qeyd etdilər ki, insana qayğını özündə təcəssüm etdirən böyük inkişaf Kəngərli rayonunun bütün kəndlərini əhatə edib, müasir məktəb binaları, səhiyyə və mədəniyyət ocaqları tikilib istifadəyə verilib, yollar abadlaşdırılıb, sənaye müəssisələri yaradılıb, yeni iş yerləri açılıb.

Qarabağlar kənd sakini Nahas Səfərov bildirdi ki, bu gün Kəngərli rayonunda bütün təşkilatlarda əhaliyə nümunəvi xidmət göstərilir, insanların problemlərinin həllinə həssaslıqla yanaşılır. Sakinlərin işlə təminatı, rabitə xidmətindən istifadəsi, onlara lazımi səviyyədə tibbi xidmətin göstərilməsi diqqət mərkəzində saxlanılır. Görülən bütün işləri insanlar sevinclə, alqışlarla qarşılayırlar. Bu isə rayon sakinlərinin qurub-yaratmaq əzmini daha da yüksəldir.

* * *

## Şahbuz rayonu

***15 İyun – Milli Qurtuluş Günü müstəqil ölkəmizin hər yerində olduğu kimi, Şahbuz rayonunda böyük coşqu ilə qeyd olunub.***

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycana bəxş etdiyi Milli Qurtuluş Şahbuz rayonunun da inkişaf və tərəqqiyə qovuşmasına səbəb olub. Bu gün siması günbəgün dəyişilən Şahbuz şəhəri, rayonun hər bir yaşayış məntəqəsi məhz Milli Qurtuluşun bəhrələridir. Rayonda aparılmış genişmiqyaslı quruculuq, kəndlərin abadlığı, rahat sosial infrastruktur və şahbuzluların müasir həyat səviyyəsi ulu öndər Heydər Əliyevin xalqımıza miras qoyduğu ən böyük sərvətin – müstəqilliyin və Milli Qurtuluşun sayəsindədir. Təbii gözəlliklərlə zəngin olan Şahbuzun müasir tərəqqi və inkişaf mənzərəsi indi bu rayonun hüsnünə daha da yaraşıq verib.



Şahbuz şəhərində keçirilən budəfəki ümumxalq bayramı, Milli Qurtuluş Günü gur axınlı xalq gəzintisi ilə yadda qaldı. Rayon mərkəzində həmsöhbət olduğumuz Şahbuz şəhər sakinləri Fazil Rzayev və Ramiz Cəlilov bildirdilər ki, Milli Qurtuluş Günü hamımız üçün müqəddəs bayramdır. Ötən əsrin 90-cı illərində ölkəmizin başının üstünü almış təhlükədən xilas olunmağımıza görə dahi rəhbərə borcluyuq. Güclü Azərbaycan dövlətinin qurulması Milli Qurtuluş Günündən başlayır. Şahbuz rayonu da əsl inkişafına bu dövrdən sonra qovuşub. Rayonumuz abadlaşıb, sakinlərin güzəranı yaxşılaşıb. İndi Şahbuz təkcə muxtar respublikamızın deyil, ölkəmizin turizm və istirahət mərkəzlərindən birinə çevrilib. Bütün kəndlərimiz müasir görkəminə qovuşub, heç zaman belə olmamış hamar yollar çəkilib.

Qeyd edək ki, Milli Qurtuluş Günü münasibətilə Şahbuz şəhərində təşkil olunmuş xalq gəzintisi axşam saatlarınadək davam edib, əhaliyə müxtəlif iaşə xidmətləri göstərilib.

## Culfa rayonu

***Ümummilli liderimiz Heydər Əliyevin 1993-cü il iyunun 15-də ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ölkəni düçar olduğu anarxiya, xaos, özbaşınalıq və iqtisadi tənəzzüldən xilas edib.***



Ulu öndərimizin müstəqil Azərbaycana rəhbərlik etdiyi on il müddətində əsrlərə sığmayan böyük işlər görülüb, ölkədə vətəndaş həmrəyliyi, siyasi sabitlik, qanunların aliliyinə əsaslanan hüquqi-demokratik idarəçilik sistemi bərqərar edilib, milli Konstitusiyamız qəbul olunub, Azərbaycan sürətli inkişaf və tərəqqi yoluna çıxıb. Bu gün Azərbaycan Heydər Əliyev yolu ilə inamla irəliləyir, yeni-yeni uğurlara imza atır. Ölkə Prezidenti cənab İlham Əliyev ulu öndərin siyasi kursunu uğurla davam etdirir. Naxçıvan Muxtar Respublikası da Milli Qurtuluşun işığında böyük inkişaf yolu keçib. Həyata keçirilən sosial-iqtisadi islahatlar, reallaşdırılan böyük layihələr muxtar respublikamızı tərəqqiyə qovuşdurub.

Milli Qurtuluş Gününün bəhrələrini Culfa rayonunda da hər addımda müşahidə etmək olar. Odur ki, rayon sakinləri xalqımızın bu əziz bayramını hər il böyük coşqu ilə qeyd edirlər.

Milli Qurtuluş Günü münasibətilə Culfa rayonunda da rayon mərkəzində yerləşən Mədəniyyət və İstirahət Parkında xalq gəzintisi olub. Burada bir neçə rayon sakini ilə həmsöhbət olduq. Ləkətağ kənd tam orta məktəbinin direktoru Eldəniz Məmmədov bildirdi ki, muxtar respublikamızın ayrı-ayrı bölgələrində olduğu kimi, Culfa rayonunda da genişmiqyaslı quruculuq tədbirləri həyata keçirilib, yeni sosial obyektlər həyata vəsiqə alıb. 26 ümumtəhsil müəssisəsinin fəaliyyət göstərdiyi rayonda 21 orta məktəb, 1 uşaq bağçası, şahmat məktəbi, 4 məktəbdənkənar təhsil müəssisəsi üçün müasir tələblərə cavab verən yeni binalar tikilib istifadəyə verilib.

Söhbətimizə qoşulan Culfa şəhər sakini Nazim Məmmədov qeyd etdi ki, rayon mərkəzini ucqar dağ və sərhəd kəndləri ilə birləşdirən avtomobil yollarının əsaslı təmiri və yenidən qurulması da diqqət mərkəzində saxlanılıb, ümumi uzunluğu 57 kilometr olan Çeşməbasar-Boyəhməd avtomobil yolu yenidən qurularaq istifadəyə verilib. Kənddaxili və kəndarası avtomobil yollarında əsaslı təmir işləri aparılıb, rayon sakinlərinin rahatlığı təmin olunub.

Sahibkar Alıyar Quliyev isə vurğuladı ki, daxili bazarın yerli məhsullarla təmin olunmasında mühüm rol oynayan kiçik və orta sahibkarlığın inkişafına əlverişli şərait yaradılıb, əhalinin məşğulluğu təmin olunub, maddi rifahının daha da yaxşılaşmasına geniş imkanlar açılıb. Bütün bunlar Milli Qurtuluş Gününün bəhrələridir.

* * *

## Sədərək rayonu

***Sədərək rayonunda 15 İyun – Milli Qurtuluş Günü münasibətilə təşkil edilən xalq gəzintisi və Sədərək Rayon Uşaq Musiqi Məktəbi şagirdlərinin konserti sərhəd bölgəsi sakinlərinin Azərbaycanın memarı və qurucusu ulu öndər Heydər Əliyevə böyük sevgi və ehtiramının təntənəsinə çevrildi.***



Sədərək rayonunun yaradılması, bölgədə yaşayış massivlərinin salınması, inkişafı və tərəqqisi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Bunu rayon sakinləri bir daha dilə gətirdilər. Nadir Məmmədov bildirdi ki, XX əsrin 90-cı illərinin əvvəllərində Sədərək Ermənistan tərəfindən hücumlara məruz qalıb. Naxçıvan Muxtar Respublikasının Ermənistanla sərhəd bölgəsi olan, Naxçıvanın qala qapısı sayılan Sədərəkdə Azərbaycanın ərazi bütövlüyü uğrunda 1990-1993-cü illərdə ağır döyüşlər gedib. O zaman buradakı ağır vəziyyətlə bilavasitə tanış olan ümummilli lider Heydər Əliyev bu təcavüzün qarşısının alınması üçün misilsiz xidmətlər göstərib, dünyanın diqqətini burada baş verən hadisələrə yönəldib. Sədərəklilər ümummilli liderin Sədərək rayonunun yaradılması, Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsində xidmətlərini dərin hörmət və ehtiramla xatırlayırlar. Onlar qürur duyurlar ki, məhz bu rayonun mərkəzi Azərbaycan xalqının və ümumilikdə, bütün Türk dünyasının böyük oğlu Heydər Əliyevin adını daşıyır.

"Ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə Sədərək rayonunun erməni işğalından qorunması, bölgənin sosial infrastrukturunun möhkəmləndirilməsi, əhalinin güzəranının yaxşılaşdırılması, sərhəd bölgəsinin sosial-iqtisadi inkişafının təmin edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib. Araz çayı üzərində Türkiyə ilə Azərbaycanı birləşdirən Sədərək-Dilucu körpüsü tikilib, Türkiyənin həmsərhəd vilayətlərindən Sədərəkə elektrik xətti çəkilib. Ulu öndərin tövsiyələrinə uyğun olaraq bu bölgənin inkişafı diqqət mərkəzində saxlanılıb, rayon mərkəzində və kəndlərdə kompleks quruculuq tədbirləri həyata keçirilib", – bunları isə rayon ziyalısı Samil Kazımov dedi.

Sərhəd bölgəsində təşkil olunan xalq gəzintisi və konsert sədərəklilərin yüksək əhval-ruhiyyədə iştirakı və uşaqların ifa etdikləri bir-birindən maraqlı musiqi nömrələri və rəqslərlə yadda qaldı.

**Xəbərlər şöbəsi**

## Naxçıvan haqqında fotosərgi və təqdimat Miyakocima sakinləri tərəfindən böyük maraqla qarşılanıb





*Azərbaycan və Yaponiyanın regionları arasında dostluq və əməkdaşlıq əlaqələrinin qurulması çərçivəsində Okinava prefekturasının Miyakocima şəhərində prefekturanın nümayəndə heyətinin Naxçıvan Muxtar Respublikasına səfəri barədə fotosərgi açılıb.*

Sərginin açılış mərasimində Okinava prefekturasının və Miyakocima şəhərinin rəhbərliyi, Azərbaycanın Yaponiyadakı səfiri və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Mərasimdə çıxış edən səfir Gürsel İsmayılzadə Azərbaycanın qədim tarixi, zəngin mədəniyyəti barədə məlumat verib, son illər əldə edilən yüksək iqtisadi uğurlardan danışıb. Ölkələrimiz arasında dostluq münasibətlərinin inkişafı məqsədilə regionlar arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsinin əhəmiyyətini qeyd edib.

Bir həftə davam edəcək sərgidə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının füsunkar təbiəti, tarixi və mədəniyyət abidələri, eləcə də iqtisadi obyektlərinə dair fotolar nümayiş etdirilir.

Miyakocima şəhər parlamentində tarixdə ilk dəfə xarici dövlətin nümayəndəsi kimi çıxış edən səfir şəhər parlamentinin üzvlərinə ölkəmiz, eləcə də Azərbaycan-Yaponiya münasibətləri haqqında ətraflı məlumat verib. Miyakocima şəhər parlamentinin üzvlərini qədim tarixə, zəngin mədəniyyətə və müasir inkişafa malik olan Naxçıvan haqqında məlumatlandıran diplomat iki şəhər arasında dostluq və əməkdaşlıq münasibətlərinin qurulmasının ölkələrimiz arasındakı əlaqələrə müsbət töhfələr verəcəyinə əminliyini ifadə edib.

**Vüqar AĞAYEV**
***AZƏRTAC-ın xüsusi müxbiri, Tokio***

*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində 2015-2016-cı tədris ilində keçirilən respublika fənn olimpiadaları qaliblərinin mükafatlandırılması mərasimi olub.*

## Respublika fənn olimpiadalarının qalibləri mükafatlandırılıb



Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov əldə edilən nailiyyətlərin muxtar respublikada təhsil sahəsinə göstərilən diqqət və qayğının bəhrəsi olduğunu deyib, qaliblərə yeni-yeni nailiyyətlər arzulayıb. Bütün bu uğurların qazanılmasında ümumi təhsil müəssisələrində çalışan peşəkar müəllimlərin əməyi olduğunu xüsusi olaraq qeyd edən təhsil naziri istedadlı şagirdlərin hazırlanmasında onlara daha böyük müvəffəqiyyətlər diləyib. Təhsil naziri şagirdləri, onların fənn müəllimlərini və valideynlərini təbrik edib, daha parlaq nəticələrin əldə olunması üçün mövcud imkanlardan səmərəli istifadə edilməsinin zəruriliyini vurğulayıb.

Müxtəlif fənlər üzrə ən yaxşıların üzə çıxarılması, istedadlı şagirdlərin daha da həvəsləndirilməsi, onların potensialının inkişaf etdirilməsi məqsədilə keçirilən fənn olimpiadalarının böyük əhəmiyyətə malik olduğunu, müasir dünyada təhsilin önəmini xatırladan təhsil naziri onu da qeyd edib ki, şagirdlərin müvafiq fənlər üzrə biliklərinin daha da möhkəmlənməsinə səbəb olan bu olimpiadalara marağın ilbəil artması təhsil sahəsində uğurla həyata keçirilən islahatların səmərəli olmasının göstəricisidir.

Tədbirdə respublika fənn olimpiadasının qaliblərinə medallar, ölkə miqyasında keçirilən “Milli-mənəvi dəyərlər haqqında düşüncələrim” mövzusunda inşa yazı müsabiqəsinin respublika mərhələsinin qaliblərinə isə diplom və qiymətli hədiyyələr təqdim edilib.

Məlumat üçün bildirək ki, fənn olimpiadalarının rayon (şəhər) turunda muxtar respublika üzrə 890 şagird iştirak edib, 351 şagird olimpiadaların yarımfinal turunda iştirak etmək hüququ qazanıb. 8 fənn üzrə keçirilən bu turun iştirakçıları arasından 45 şagird fənn olimpiadalarının final mərhələsinə vəsiqə əldə edib. Aprelin 23-də keçirilən final mərhələsində muxtar respublikanın ümumtəhsil müəssisələrini təmsil edən 45 şagirddən 14-ü texniki, 31 nəfər isə humanitar fənlər üzrə biliklərini sınayıb, həmin şagirdlərdən 26 nəfər fənn olimpiadalarının qalibi olub, onlardan 4-ü qızıl, 11-i gümüş, 11 nəfəri isə bürünc medala layiq görülüb.

Xatırladaq ki, 3 mərhələdə keçirilmiş respublika fənn olimpiadalarının birinci mərhələsində 27 min 500, ikinci mərhələsində 4 min 174, final mərhələsində isə 694 şagird iştirak edib. Texniki fənlər üzrə 128, humanitar fənlər üzrə isə 132 nəfər qalib olub.

**✍ Səbuhi HÜSEYNOV**

*17 iyun tibb işçilərinin peşə bayramı günüdür*

## İnsan sağlamlığı cəmiyyətin ən qiymətli sərvətidir



***1918-ci il iyunun 17-də Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ölkəmizdə ilk səhiyyə nazirliyi yaradılmışdır. Ümummilli liderimiz Heydər Əliyevin 2001-ci il 4 iyun tarixli Sərəncamı ilə hər il iyunun 17-si ölkəmizdə tibb işçilərinin peşə bayramı günü kimi qeyd olunur.***

Dahi liderin rəhbərliyi ilə hələ ötən əsrin 70-ci illərində ölkəmizin bütün regionlarında səhiyyə ocaqları tikilərək istifadəyə verilmiş, əhalinin sağlamlığının qorunmasına xüsusi diqqət yetirilmişdir. Müstəqillik illərində də səhiyyənin inkişafına hesablanmış məqsədyönlü və ardıcıl tədbirlər görülmüş, bu sahədə fəaliyyəti tənzimləyən zəngin qanunvericilik bazası yaradılmış, həkimlərin və tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, ixtisaslı və peşəkar həkim kadrlarının hazırlanması diqqət mərkəzində saxlanılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ulu öndərin müəyyənləşdirdiyi siyasi kursu bütün istiqamətlərdə, eləcə də səhiyyə sahəsində uğurla davam etdirir. Son illər tibbi xidmətin müasir standartlar səviyyəsinə yüksəldilməsi, vətəndaşların sağlamlığının etibarlı təminatı məsələləri dövlətin üzərinə götürdüyü sosial öhdəliklər sırasında mühüm yer tutur. Belə ki, qəbul olunmuş dövlət proqramlarının həyata keçirilməsi vətəndaşlara göstərilən tibbi xidmətin səviyyəsinin yüksəlməsinə səbəb olmuşdur.

Naxçıvan Muxtar Respublikasında səhiyyə infrastrukturunun yenilənməsi, yeni ambulator və stasionar müalicə-profilaktika müəssisələrinin yaradılması əhalinin sağlamlığının qorunması işində əsaslı dönüşə səbəb olmuşdur. Dərman və tibbi ləvazimatlarla təchizat yaxşılaşdırılmış, ana və uşaqların, ahıl vətəndaşların, bütövlükdə əhalinin hər bir təbəqəsinin sağlamlığının qorunması prioritet məsələyə çevrilmişdir. Hazırda muxtar respublikada əhaliyə 233 tibb müəssisəsi tərəfindən tibbi xidmət göstərilir. Həmin tibb müəssisələrində 707 həkim və 2103 orta tibb işçisi çalışır. Həmçinin muxtar respublikada 5 özəl tibb müəssisəsi fəaliyyət göstərir.



Son illər muxtar respublikada 250-dən çox səhiyyə müəssisəsi tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir. Ötən il ən böyük quruculuq ünvanlarından olan Naxçıvan Muxtar Respublika Xəstəxanası ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə istifadəyə verilmişdir. Ölkə başçısı açılış mərasimində demişdir: ***“Bu xəstəxananın istifadəyə verilməsi ilə Naxçıvanda səhiyyə infrastrukturunun yaradılması prosesi başa çatır. Çünki bu günə qədər həm diaqnostika mərkəzi tikilib istifadəyə verilmişdir, doğum mərkəzi tikilmişdir və bütün rayonlarda müasir xəstəxanalar artıq var, fəaliyyət göstərir. Bu, doğrudan da çox əlamətdar hadisədir və bir daha göstərir ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun rahatlığı, sağlamlığı dayanır”.***

Bu gün muxtar respublikada səhiyyə sahəsində görülən işlər təkcə quruculuq tədbirləri ilə yekunlaşmır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2003-cü il 27 may tarixli Sərəncamı ilə muxtar respublikanın dövlət səhiyyə müəssisələrində bütün növ pullu xidmətlər ləğv edilmişdir. Son illər tibb ocaqlarında lazımi şəraitin yaradılması, müasir avadanlıqlar, müayinə və müalicə aparatları ilə təchizat hər bir vətəndaşa öz sağlamlığını qorumağa imkan yaradır. Bütövlükdə, tibb müəssisələrinin stasionar və ambulatoriya bölmələri xidmətin əhatə dairəsini xeyli genişləndirmişdir. Bu gün səhiyyə müəssisələrindəki ən müasir aparatlar müayinə və müalicənin düzgün təşkilinə imkan verir.

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 10 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı”nın icrasını təmin etmək üçün muxtar respublikada ardıcıl tədbirlər həyata keçirilir. Dispanserizasiyanın nəticələrinə görə, bu günə qədər 19 min 626 nəfər müayinə olunmuş, 221 nəfər qeydiyyata götürülmüşdür. Təhsil müəssisələrində şagirdlərin pediatr, oftalmoloq, stomatoloq, ortoped tərəfindən kütləvi müayinəsi də başa çatdırılmış, 38 min 345 nəfərdə müayinə aparılmışdır.

Ali Məclis Sədrinin tapşırığı ilə kardiocərrahiyyə, uroloji, plastik, göz, angioqrafiya və digər yüksəkixtisaslı həkim briqadalarının dəvət olunaraq muxtar respublikamıza gətirilməsi, aztəminatlı ailələrdən olan xəstələr üçün nəzərdə tutulmuş xüsusi sağlamlıq layihələrinin reallaşdırılması insanların sağlamlığına göstərilən diqqət və qayğının bariz ifadəsidir. Təkcə 2015-ci il ərzində sosial layihələr çərçivəsində 556 cərrahi əməliyyat aparılmış, 22 xəstənin ürək damarlarına stent qoyulmuşdur.

Səhiyyənin inkişafı istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində kadr təminatının təkmilləşdirilməsi də vacib məsələ kimi daim diqqət mərkəzində saxlanılır. Naxçıvan Dövlət Universitetində və Naxçıvan Tibb Kollecində ali və orta ixtisas tibb kadrlarının hazırlanması bu işdə mühüm nailiyyətlərin qazanılması ilə nəticələnmişdir. Artıq bu təhsil ocaqlarını bitirən gənc tibb işçiləri muxtar respublikanın xəstəxanalarında çalışırlar. Bununla yanaşı, həkimlərin peşə vərdişlərinin artırılması məqsədilə çoxsaylı seminarlar, konfranslar keçirilir, tibb işçiləri Bakı şəhərinə və Türkiyə Respublikasının müxtəlif klinika və xəstəxanalarına kurslara göndərilirlər. Bütün bunların nəticəsidir ki, artıq muxtar respublikadan olan həkimlər müstəqil şəkildə xəstələr üzərində açıq ürək, laparoskopik, TUR, LOR, göz və digər mürəkkəb cərrahi əməliyyatlar aparırlar. Bu il may ayının 26-da Naxçıvan səhiyyəsində daha bir uğura imza atılmış, Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin kardiocərrahları tərəfindən ilk dəfə olaraq açıq ürək əməliyyatı aparılmışdır.




Naxçıvanda səhiyyə turizmi də diqqətdə saxlanılan məsələlərdəndir. Təbii müalicə mərkəzləri olan Duzdağ Fizioterapiya Mərkəzi və Darıdağ Arsenli Su Müalicəxanası yenidən qurularaq istifadəyə verilmiş, hərtərəfli şərait yaradılmışdır.

Müasir dövrdə əhalinin sağlamlığının qorunması istiqamətində həyata keçirilən tədbirlərin əsas istiqamətlərindən birini də səhiyyə maarifi işi təşkil edir. Əhali arasında səhiyyə maarifinin gücləndirilməsində və yerlərdə onlara tibbi xidmət göstərilməsində həkim briqadalarının böyük rolu var. Bu briqadalar qrafik əsasında kəndlərdə olur, əhaliyə tibbi xidmət göstərirlər. Bu da xəstəliklərin qarşısının alınması, onların erkən aşkar edilməsi və vaxtında müalicə olunması baxımından əhəmiyyətlidir.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi dövlət proqramlarının icrasını əsas fəaliyyət istiqaməti kimi götürmüşdür. Yoluxucu xəstəliklərin qarşısının alınması məqsədilə gigiyena və epidemiologiya mərkəzləri tərəfindən profilaktik və əks-epidemik tədbirlər mütəmadi olaraq davam etdirilir, su anbarlarında, su təchizatı qurğularında, ictimai, inzibati və digər binalarda, məişət suları axıdılan və tullantılar toplanan yerlərdə dezinfeksiya və dezinseksiya işləri aparılır. Bu istiqamətdə görülən işlərin nəticəsidir ki, Ümumdünya Səhiyyə Təşkilatının müntəzəm monitorinqdə saxladığı əsas yoluxucu xəstəliklərə muxtar respublika ərazisində təsadüf olunmur.

*Peşə bayramlarını yüksək nailiyyətlərlə qeyd edən tibb işçiləri bundan sonra da muxtar respublika səhiyyəsinin inkişafına öz layiqli töhfələrini verəcəklər.*

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***



# Naxçıvanın baş tacı: Əlincəqala

Tarixi oxudum hey varaq-varaq,
Hər bir səhifəsi sirlərlə dolu.
Oxuduqlarımdan yola çıxaraq
Gördüm qaranlıqmış tarixin yolu.

Mən nə arxeoloq, nə tarixçiyəm,
Onlar hər saxsının dilini bilir.
Bir sınıq küpənin gərəkdir deyəm,
Dövrünü, əsrini, ilini bilir.

Tarixçi qardaşım, tarixçi alim,
Sənin yazdığını bir də oxudum.
Qələmim kirkitdi, vərəqim kilim,
Sözdən ilmə-ilmə naxış toxudum.

Çatdım Əlincənin tarixinə mən,
Dayandım, xəyala daldım, düşündüm.
Özümə bir sual verdim: Niyə mən
Bu haqda bir əsər yazmayım bu gün?

Getdim on dördüncü əsrin sonuna,
Gördüm Qızıl Orda xanı Toxtamış
Hücum əmri vermiş öz qoşununa –
Nə bir nəfəs dərmiş, nə də toxtamış.

Doxsan min nəfərlik nizami ordu,
Başında Bəy Polad adlı sərkərdə.
Təhlükə içində bu Odlar Yurdu,
Hamı bir nəfərtək müdafiədə.

Min üç yüz səksən beş... o ilin qışı,
Döyüşür Şamaxı, Gəncə, Naxçıvan.
Azərbaycanımın hər bir qarışı
Bir-bir təmizləndi işğalçılardan.

Amma savaşların öz qanunu var,
Çoxu qaçqın düşdü, qaldı yuvasız.
Düzəldi dağılıb yandırılanlar,
Bir il belə keçdi, döyüş – davasız.

Keçir xəyalımdan oxuduqlarım
Həmdullah Qəzvini belə nəql edir.
Qızıl Orda xanı Toxtamış – zalım,
Buranı dağıdır və çıxıb gedir.

Naxçıvan min üç yüz səksən altıda
Yeni təhlükəylə üz-üzə gəldi.
Yenə də boynunu əymədi yada,
Şəst ilə düşmənlə göz-gözə gəldi.

Bu dəfə yurdumun üstünə gələn
Orta Asiyalı Əmir Teymurdu.
Qüruru, hikkəsi dağları dələn
O fateh yurduma çox ziyan vurdu.

Əvvəlcə Şeyx Həsən düşmüş qabağa,
Teymur ordusunun önünə çıxmış.
Düşmən od vuraraq hər bağça-bağa,
Hər yeri dağıtmış, yandırıb-yaxmış.

Qorxmadı, döyüşdü naxçıvanlılar,
Düşmən sayca çoxdu, qüvvəcə üstün.
Lakin Əlincətək ümid yeri var,
Ora sığındılar bir gün büsbütün.

Culfada Xanəgah kəndinə yaxın,
Əlincə çayının sağ sahilində.
Ucaboy əsgərtək dayanıb, baxın,
Adı əzbər olub xalqın dilində.

Öz övladlarını bağrına basan,
Bir dağ qalasıdır – budur Əlincə.
Düşmənin başına zərblə çırpılan
Naxçıvanın yumruğudur Əlincə.

Teymur qoşunundan gah İlyas Xoca,
Gah Miranşah oğlu Əbubəkr Mirzə.
Əl atmış silaha – kəskin qılınca,
Yenə döyüşərək dözmüş Əlincə.

Sultan Əhməd oğlu Məlik Tahirlə
Əlincə düşmənə sinə gəribdir.
Əmir Altun ilə, Xacə Cövhərlə
Birlikdə döyüşüb qalib gəlibdir.

Sonralar Məhəmməd Dərviş Bərlasın
Nizami ordusu keçdi hücuma.
Əlincəni – xalqın qeyrət qalasın
Tutub işğal edə bilmədi amma.

Bərlas əl çəkmədi hücumlarından,
Gəldi köməyinə Xacə Ağbuğa.
Qırx minlik orduyla durmayıb bir an
Yürüş eylədilər bu məğrur dağa.

On dörd il vuruşdu Topal Teymurla,
Bəzən həftələrlə ac-susuz qaldı.
Bir tarix yaratdı Əlincəqala,
Elə gün oldu ki, yuxusuz qaldı.

Demək ki, beləymiş hökmü taleyin,
Tarixi yaşamaq yazmaqdan çətin.
Adları yaşayır Hacı Salehin,
Əmir Seyyid Əhməd Oğulşaminin.

Düşmənin önündə sonadək dözüb-
Onlar Əlincənin qəhrəmanları.
Şərafəddin Əli Yəzdi də yazıb,
"Zəfərnamə"sində bu olanları.

Fəsillər dolanır, illər dəyişir,
O gedir, bu gəlir, səngimir savaş.
Əlincə baş əymir, yenə döyüşür,
Qılınc səslərindən titrəyir dağ-daş.

Əlincə qalada tükənib hər şey,
Taqətdən düşübdür igidlər, Allah!
Düşməni hücuma səsləyirlər hey,
Məhəmməd Daruğa, bir də Firuzşah.

Düz min üç yüz doxsan doqquzuncu il, –
Bezir Əmir Teymur, yola düzəlir.
Qanlara susamış zalım, əzazil
Yeni qüvvə ilə köməyə gəlir.

Aclıq başlamışdı müdafiədə,
Kəsilmişdi burda hər kəsin əhdi.
Düz on dörd il qaldı mühasirədə,
Axır təslim oldu Əlincə əhli.

Çatdı arzusuna min dörd yüz birdə,
Əlincəqalanı aldı Teymurləng.
Qalaya çıxarkən düşündü bir də
Uzun çəkməmişdi belə heç bir cəng.

Böyük sərkərdələr böyük düşünər,
Etiraf eylədi bu həqiqəti.
Hər bir çətinliyi məhv edə bilər,
Yumruq tək birləşən xalqın qeyrəti.

Bildi bu yerlərin hər vətəndaşı,
Vətənçün canını verməyə hazır.
O vaxtdan qalanın qayası-daşı
Keçmişi qoruyub, tarixi yazır.

Tarixi oxuyub təkrar etdikcə,
Xəyalən yaşadım olub-keçəni.
Məğrur duruşuyla bu gün Əlincə
Bir də məftun etdi özünə məni.

Bir vaxtlar Əlincə Atabəylərin
Baş iqamətgahı olmuş deyirlər.
Çay kənarındakı bu qədim yerin
Barı-bərəkəti bolmuş, deyirlər.

Dünyaya hökm edən fatehlər hanı,
Hanı yer titrədən zalım ordular?
Əlincə göstərdi kimin ad-sanı,
Zamana həkk olub zamanla yaşar.

Şair, qələmini qılınca döndər,
Çağır Toxtamışı və Teymurləngi.
Bir də bu yerlərə etsinlər səfər,
Görsünlər burdakı yeni ahəngi.

Zamanın yağışı, qarı, tufanı,
Xeyli dağıtmışdı qalanı, ancaq,
Gəlib görsən əgər indi buranı,
Qürurun Əlincə boyda olacaq.

Qalxdım pillələri aramla bir-bir,
Hər qarış tarixin nişanəsidir.
Bu gün qaladakı bərpa və təmir
Tarixə hörmətin nümunəsidir.

Addım-addım qalxdım daş pillələri,
Əsgər səkiləri danışdı, dindi.
Dedi babaların min bir hünəri,
Burda daşa dönüb uyuyur indi.

Lazım gəlsə əgər canlanar daşlar,
Yenə qılınc çəkər düşmən üstünə.
Hay versə oyanıb bu daş qardaşlar,
Qartal kimi çökər düşmən üstünə.

Duydu heyrətimi qala bürcləri,
O da dilə gəldi bir adam kimi.
Dedi diqqətlə bax, qala küncləri,
Sıldırım qayalar istehkam kimi.

Gəzdim Əlincəni qarışbaqarış,
Qala zirvəsindən baxdım hər yana.
Qaranlıq düşməmiş, Günəş batmamış
Qürurla boylandım can Naxçıvana.

Burda üç quyulu böyük kəhrizin
Buz kimi suyundan içdim doyunca.
Köksü qabaracaq burda hər kəsin,
Gəlib, görüb gəzsə qala boyunca.

Burda dağ başında yaranıb nələr, –
Əl dəyirmanları, su hovuzları.
Tarixdən yadigar çox nişanələr –
Təndir qalıqları – bərəkət varı.

Ən uca zirvədə bir iç qala var,
Ora çıxıb-düşmək heç asan deyil.
Dar cığırlı yollar ora aparar,
Xalq həmin o yerə Şah taxtı deyir.

Sıldırım qayanın üzərindəki
Yaşayış sahəsi bir möcüzədir.
Başına dolanan çən-duman sanki
Gəlib Əlincəni ziyarət edir.

Qala divarları əvvəlki kimi,
Daha əzəmətlə, şəstlə ucalır.
Qala bürclərinin sirli tilsimi
Adamın ağlını başından alır.

Tanrım, buludlara salam söyləyən
Bir dağın başında bu nə möcüzə?!
Tarixi qoruyan, bərpa eyləyən,
Tarix minnətdardır hər zaman sizə.

Ən uca zirvədən baxdım qalaya,
Nağılmı, dastanmı bu gördüklərim?!
Əlincə haqqında bütün dünyaya
Yayılıb səs salsın qoy bu əsərim.

Tarix öz hökmünə sədaqətlidir,
Tarix həm qanundur, həm də ki, hakim.
Tarix insaflıdır, ədalətlidir,
Onu qoruyanı yaşadıb daim.

Düzü düz, əyrini əyri yazıblar,
Mənim tariximin hökmü qətidir.
Bax, məğrur dayanan Əlincə ki var,
Dünənin bu günə həqiqətidir.

Həqiqət budur ki, vətənim mənim,
Min qanlı-qadalı savaşlar görüb.
Dosta dost, düşmənə düşmən vətənim
Arxadan atılan çox daşlar görüb.

Yenə sınmayıbdır, əyilməyibdir,
Xalqımın mərdliyi dillər əzbəri.
Bu millət sözünü hər vaxt deyibdir,
Bəllidir sözünün gücü, kəsəri.

Qoy bunu dərk etsin anlamayanlar,
Əlincə qeyrətdir, gücdür, dözümdür.
Mənim beş min illik bir keçmişim var:
Əlincə zamana tarix sözümdür.

Yenə illər gəlib keçib gedəcək,
Yaşayacaq ancaq Əlincəqala!
Doğma Naxçıvanın başında tactək,
Daim parlayacaq Əlincəqala!

**Elxan YURDOĞLU**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 470